# Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi, Rəşadətli Ordumuzun mərdliyi ilə Qələbə qazandıq

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Ordumuzun şücaəti sayəsində şanlı Qələbəmizin əldə olunmasının şərəfinə təsis edilmiş Zəfər Gününün üçüncü ilini qeyd edirik. Otuz ilə yaxın müddət ərzində heç bir haqlı tələbimizə və beynəlxalq hüquqa məhəl qoymadan torpaqlarımızı işğal altında saxlayan Ermənistan dövləti, eyni zamanda, onun siyasi rəhbərliyi məğlubiyyətə düçar oldu. Nəhayət ki, Azərbaycan haqq savaşında düşməni məğlub edərək qalib dövlətə çevrildi. Zəfər Günü Azərbaycan Ordusunun 44 gündə yazdığı uğur hekayəsinin xronologiyasıdır. Amma bu uğura nail olmaq böyük qətiyyət, yenilməz siyasi iradə, hərtərəfli hazırlıq tələb edirdi. Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycan xalqını "Dəmir yumruq" kimi ətrafında birləşdirərək bu Qələbəni, tarixi Zəfəri təmin etdi.**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 10 milyonluq Azərbaycan xalqı 44 gün ərzində ərazi bütövlüyümüzü bərpa etdi. Hər bir azərbaycanlının qəlbində yüksək qürur hissləri yaradan Şanlı və tarixi qələbəmiz Azərbaycan xalqında milli oyanışa, yeni bir dirçəlişə, birliyə səbəb oldu. Bütün Azərbaycan xalqı Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşərək sözün əsl mənasında böyük xalq olduğunu sübut etdi, misilsiz birlik, həmrəylik nümayiş etdirdi və cəmiyyətimizdə mövcud olan Xalq-Lider-Ordu birliyini daha yüksək səviyyəyə qaldırdı. Xalq öz Liderinə ürəkdən inandı və Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının etimadını əməli fəaliyyəti və şanlı zəfəri ilə doğrultdu.

Hazırda dünyanın diqqət mərkəzinə çevrilən Azərbaycan öz siyasi, hərbi gücünü, hətta dayanıqlı maliyyə durumunu belə dost və düşmən ölkələrə nümayiş etdirdi. İkinci Qarabağ savaşının üzərindən qısa zaman keçməsinə baxmayaraq, ölkəmizlə bir çox sahələrdə əməkdaşlıq etmək istəyənlər və müttəfiq olmaq üçün səy göstərənlər durmadan artır. Çünki, həm siyasi müstəvidə, həm də döyüş meydanında Azərbaycan sözün əsl mənasında qarşı tərəfə meydan oxudu. 30 ilə yaxın işğal altında olan torpaqları geri qaytarmaq, BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan 822, 853, 874 və 884 saylı qətnamələrinin icra olunması ilə bağlı möhtərəm Prezidentimiz dəfələrlə müxtəlif beynəlxalq tribunalarda, beynəlxalq qurumlar çərçivəsində məsələ qaldırsa da, dünya ictimaiyyətinin Azərbaycana münasibətdə bu ədalət bərpa olunmadı. Rəsmi Bakı keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini illərdir danışıqlar yolu ilə həll etməyə çalışsa da düşmən bu məsələdə ciddi mövqe nümayiş etdirmədi və bununla da Azərbaycan öz torpaqlarını hərbi güclə geri almaq yolunu geçdi. Danışıqlar dövründə Ermənistanın hərbi-siyasi rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları, diversiyaları bizi münaqişənin sülh yolu ilə həllinin mümkün olmadığına əmin etdi.



Çünki Ermənistan təxribatlarından əl çəkmirdi. Ermənistan tərəfinin diversiya-kəşfiyyat qrupu 2020-ci ilin avqust ayında da, təmas xəttində təxribat törətməyə cəhd göstərsə də, görülən əks-tədbirlər nəticəsində diversiya qrupu itki verərək geri çəkilmiş və qrupun komandiri baş leytenant Qurgin Alberyan əsir götürülmüşdür. Ermənistanın davamlı olaraq işğalçı siyasətdən əl çəkməyib 2020-ci il sentyabr ayının 27-də atəşkəs rejimini kobud şəkildə pozaraq təxribatlar həyata keçirməsi həmin təxribatların qarşısını almaq üçün əks-həmlə əməliyyatlarına başlanılmasına və respublika ərazisində hərbi vəziyyətin elan olunmasına səbəb olmuşdur. Hərbi əməliyyatların gedişində Ermənistan hərbi cinayətlər törətməkdən də çəkinmədi. Döyüş bölgələrindən kənarda və hətta uzaqda yerləşən yaşayış məntəqələrimizi ağır silahlardan raket atəşinə tutmaqla çoxsaylı mülki şəxslərin həyatına son qoydu. Lakin bütün bunlar döyüş səhnəsində Ermənistana bir anlıq da olsa üstünlük qazandıra bilmədi. Qırx dörd günlük savaşın hər günü Ordumuzun zəfərləri ilə yadda qaldı.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər yürüşünə başlamaq əmri verəndə vaxtı düzgün seçdi, Azərbaycanın və Ermənistanın gücünü, dünyada və regionda yaranmış yeni geosiyasi vəziyyəti nəzərə aldı və hesablamalarında yanılmadı. Şuşanın azad edilməsindən hələ 24 gün əvvəl nə dediyi yadınızdadırmı: "Şuşasız bizim işimiz yarımçıq olar". O vaxt bu, bəlkə də çoxlarına xəyal kimi görünürdü. Çünki Şuşaya yol sıldırım qayalıqlardan, dərin dərələrdən keçirdi. Düşmən son dərəcə əlverişli mövqedə idi, oraya tanklar, toplar yığmışdı. Ordumuzun ümidi isə yalnız yüngül silahlara idi. Əsgərlərmiz yolsuzluq şəraitində uzun məsafə qət edərək yüngül silahlarla düşməni pərən-pərən saldı, bayrağımızı qala qapısının üstünə sancdı. Azərbaycan Ordusunda aparılan islahatlar güclü dövlətin və onun qüdrətinin bir timsalı idi. Belə ki, Ordumuz dövlətimizin başçısının diqqəti, qayğısı ilə əhatə olundu, bu da Vətən müharibəsində Qələbəmizi şərtləndirən əsas elementlərdən oldu.

Qırx dörd gün olduqca az bir zaman olsa da, ancaq dünyanın hərb tarixinə qızıl hərflərlə yazılan bir proses oldu. Ali Baş Komandanın rəhbərliyi, sərkərdəlik qabiliyyəti müharibənin gedişində özünü göstərdi. Xüsusilə qeyd etmək lazımıdır ki, dövlətimizin başçısı təkcə döyüş meydanında deyil, eyni zamanda, illər boyu apardığı uğurlu, diplomatik səyləri nəticəsində diplomatik arenada da sözünü dedi. Biz müharibədən öncə və savaş zamanı ayrı-ayrı dövlətlərin Azərbaycana qarşı olan münasibətini gördük. Onlar saxta xəbərləri istehsal edərək informasiya cəbhəsində bizi sarsıtmaq istəyirdilər. Bundan əlavə, xarici KİV-lərin əksəriyyəti Azərbaycan həqiqətlərini deyil, ermənilərin məzlumluğunu bütün dünyaya çatdırırdı. Prezident İlham Əliyev də dünyanın aparıcı televiziyalarına yüksək savad, intellekt, dünya siyasətini dərindən bilən bir lider kimi ölkəmizin mövqeyini çatdırırdı. Bütün bunlardan əlavə, onun tvitləri, ayrı-ayrı yaşayış məntəqələrimizin düşmən işğalından azad olunması vətəndaşlarımızı daha da ruhlandırırdı. Bu səbəbdəndir ki, xalqımız güclü liderinə son ana qədər inandı.

2020-ci ilin 44 günündə Azərbaycanda on milyon ürək bir ürək kimi Qarabağın azad edilməsi uğrunda savaşan qəhrəman əsgərlərimiz üçün döyünürdü, qələbə eşqi ilə çırpınırdı. Üç ildir ki, həmin on milyon ürək yenə eyni ahənglə Qarabağ üçün, düşmənin viran qoyduğu qədim diyarımızın dirçəlişi üçün döyünür. Zəfər Günü xalqımızın ən əziz, ən şərəfli günləri sırasında yer alıb. Allah bu günü, bu şərəf və qüruru bizə bəxş etmiş qəhrəman şəhidlərimizə rəhmət eləsin, şəhidlərimizin ailələrinə səbir, qazilərimizə isə şəfa versin. Biz bu möhtəşəm Qələbəyə görə onlara borcluyuq.

***Cəmil MƏMMƏDOV***
***Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi təsisatlarda qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin prokuroru, ədliyyə mayoru***